*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 442-446*
https://doi.org/10.62837/2024.6.442

**NAZİLƏ RƏHİM QIZI RƏHIMOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Ü.Hacıbəyli küçəsi, 68**
**rnazile@inbox.ru**

# MİLLİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARİ- HEYDƏR ƏLİYEV

**Xülasə**

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmsma xüsusi diqqət yetirirdi. Məlumdur ki, Sovet rejimi xalqımızı öz dinindən və milli-mənəvi dəyərlərindən uzaq salmışdı. Danılmaz faktdır ki, xalqımız islamlaşdıqdan sonra Azərbaycan mədəniyyəti özünün bütün maddi və mənəvi nailiyyətləri ilə birlikdə ümumislam mədəniyyəti xəzinəsinə daxil olmuş, mədəniyyətimiz islami məzmun kəsb etmişdi. Adət və ənənələrimizi, bayram və mərasimlərimizi, hətta məişətimizi belə islamdan kənar təsəvvür etmək mümkün deyildir. Bütün həyatımız, hətta memarlıq abidələrimiz öz milliliyini saxlamaqla islami çalarlar da əxz etmişdi. Ona görə də sovet hakimiyyəti illərində islam dini ilə bağlı olan bu abidələr dağıdılır, məhv edilirdi. Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu halların qarşısı qətiyyətlə alındı. O maddi-mədəniyyət abidələrimizin dağıdılmasına qarşı çıxır, onların qorunub saxlanması üçün böyük işlər həyata keçirirdi.

**Açar sözlər:** Ulu öndər milli-mənəvi dəyərlərimiz, abidə, adət və ənənə

**Giriş.** Hər bir xalqın, o cümlədən Azərbaycanlıların özünəməxsusluğunu müəyyən edən başlıca meyarlardan biri də onun milli-mənəvi dəyərləridir. Çox qədim tarixə və mədəniyyətə malik olan Azərbaycan xalqı əsrlərdən bəri özünün zəngin mentalitetini, milli-mənəvi dəyərlərini yaratmışdır. Bu dəyərlər əsrlərin süzgəcindən keçib gələrək daha da saflaşmış, zənginləşmişdir. Ancaq keçən yüzillikdə - sovet hakimiyyəti illərində xalqımızın sevə-sevə yaşatdığı, qoruyub saxladığı milli-mənəvi dəyərlərimizə qarşı hücumlar edilir, onlar sıxışdırılır, aradan çıxarılır, dilimizə, dinimizə, adət-ənənələrimizə xor baxılır, mədəniyyətlərin qovuşdurulması siyasəti yeridilir, ümumi sovet mədəniyyətinin yaradılmasına çalışırdılar. Ona görə də sovet hakimiyyəti illərində müəyyən aşınmalara məruz qalmış bu dəyərlərin müasir dünyaya qovuşmuş müstəqil Azərbaycanda yenidən bərpası, yaranması, inkişafı və gələcək nəsillərə miras buraxılması mühüm əhəmiyyət kəsb edir. Həyatımızın bütün sahələrində olduğu kimi bu tarixi missiyanın da həyata keçirilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun milli-mənəvi dəyərlərimizə, zəngin mədəni irsimizə xüsusi qayğısı sayəsində xalqımız uzun illərdən sonra yenidən milli-mənəvi dəyərlərinə qovuşmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıdışının ilk günündən milli dövlət quruculuğu prosesində dünyəviliyə üstünlük verəcəyini bəyan etdi. Bununla belə o dövlət quruculuğunda, milli birliyin yaranmasında, etnik bütövlüyün qorunub saxlanmasında dinin böyük rol oynadığını nəzərə alaraq bu istiqamətdə fundamental fəaliyyət proqramını tədricən gerçəkləşdirməyə başladı.

Çox geniş məna və məzmun tutumuna malik olan milli-mənəvi dəyərlər anlayışında ulu öndər Heydər Əliyev üç cəhətə xüsusi diqqət yetirirdi: *1. Dil, 2. Din, 3. Adət-ənənə.*

Azərbaycan dili qədim zamanlardan xalqımızın milli mənliyi, ən qiymətli və əvəzolunmaz sərvəti sayılıb.

Belə bir müdrik kəlam vardır: “Bir milləti məhv etmək istəyirsənsə onun dilini əlindən al”. Məhz bu baxımdan sovet hakimiyyəti illərində əlifbamız dəfələrlə dəyişdirilmiş, ad və soyadlarımız ruslaşdırılmış, bizi öz kökümüzdən uzaqlaşdırmaq üçün digər tədbirlərə əl atılmışdı. Bir sıra görkəmli ziyalılar bunu görüb və duysalar da qorxudan səslərini çıxara bilmirdilər. Yeridilən siyasətə qarşı qismən də olsa etiraz edənlər isə təqib olunur, ciddi cəzalandırılırdılar. Ancaq ümummilli lider Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə gəldikdən sonra xalqımız üçün böyük faciə törədə biləcək bu cür halların qarşısı qətiyyətlə alındı.

Çox mürəkkəb və çətin şəraitdə Azərbaycanda rəhbərliyə başlayan, mövcud vəziyyəti düzgün qiymətləndirən ümummilli lider Heydər Əliyev dünyanın altıda bir hissəsini əhatə edən SSRİ kimi qüdrətli bir dövlətin əhalisi türk xalqlarından ibarət olan respublikalara, o cümlədən Azərbaycana qarşı yeritdiyi siyasətə qarşı açıq-aşkar çıxmaq təhlükəli olduğuna görə çox incə üsullardan istifadə edir və öz məqsədinə nail olurdu. Ulu öndər bunu nəzərə alaraq sonralar bu haqda danışarkən demişdir ki, əgər onların əleyhinə çıxsaydım, həm bunun bir əhəmiyyəti olmayacaqdı, həm də Əliyev ölkədəki digər katiblər kimi məhv ediləcəkdi. Yavaş-yavaş mən də xalqımın, doğma millətimin milli hisslərini oyatmağa başladım. Məhz düşünülmüş və ağıllı surətdə həyata keçirilən bu siyasətin nəticəsində keçən yüzilliyin 70- 80-ci illərində Azərbaycan əhalisi, xüsusilə ziyalıları içərsində vətənpərvərlik ruhu, özünüdərk xeyli gücləndi, milli ziyalılara geniş meydan verildi, onların təqib olunmasına son qoyuldu.

Ümummilli liderin 1970-ci ildə ADU-nun (indiki BDU) yubiley yığıncağında doğma Azərbaycan dilində çıxış etməsi nəinki respublikamızda, bütün SSRİ-də böyük əks-səda doğurdu. Bundan sonra Azərbaycan dilinin inkişafı sahəsində bir sıra addımlar atıldı. Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə SSRİ rəhbərliyinin bütün təzyiq və maneələrinə baxmayaraq Azərbaycanın yeni qəbul edilmiş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

Azərbaycanda hakimiyyətinin ikinci dövründə (1993-2003-cü illər) ulu öndər Heydər Əliyev Azərbaycan dilinin daha da inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirdi. Azərbaycan dilinin incəliklərinə dərindən bələd olan, bu dildə heç bir qeydə və ya kağıza baxmadan saatlarla geniş məzmunlu nitqlər söyləməyi bacaran Heydər Əliyev Azərbaycan dili ilə əlaqədar bir sıra fərman və

sərəncamlar imzaladı. Onun dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi barədə sərəncamları, milli-mənəvi dəyərlərimizə, milli əxlaqımıza zidd təzahürlərin aradan qaldırılması ilə bağlı 13 avqust 51 2001-ci il tarixli bəyanatı bu məsələlərə Heydər Əliyevin diqqət və qayğısının təzahürüdür. Azərbaycan xalqının böyük diqqət və marağına səbəb olan məşhur bəyanatında ümummilli liderimiz deyirdi: “Hər bir xalqın öz adətənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və' bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə... bu bizi narahat etməlidir”.

Ümummilli liderimiz Azərbaycan dili ilə yanaşı Azərbaycan ədəbiyyatına, klassik ədəbiyyat nümunələrinə böyük ehtiramla yanaşır, ona böyük diqqət yetirirdi. Hakimiyyətinin ilk dövründə olduğu kimi, o siyasi hakimiyyətinin ikinci dövründə də bu istiqamətdə mühüm tədbirlər həyata keçirmişdi. Bu baxımdan onun “Kitabi-Dədə Qorqud dastanları”nm 1300 illik, “Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileylərinin keçirilməsi haqqında” imzaladığı fərmanları xatırlatmaq kifayətdir.

Bu tarixi nailiyyətlərin, xalqımızın həyatında baş verən misilsiz yeniliklərin təşkilatçısı və himayədarı Heydər Əliyev idi. Köhnə libasını dəyişən, qədim milli mədəniyyətimizin kökləri üstündə çiçəklənən yeni Azərbaycan mədəniyyəti Heydər Əliyev dühasının bəhrəsi idi.

Heydər Əliyevin irsi üzərində aparılan tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, o, ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşır.

Ulu öndər dediklərinin yalnız sözdə qalmayıb, əməldə də gerçəkləşməsi, Azərbaycanın mənəvi irsini yaşatmaq üçün o, bir sıra tədbirlər həyata keçirmiş, əhəmiyyətli qərarlar imzalamışdır. Heydər Əliyev mədəni irsi yaşatmaqla bərabər, müasir mədəniyyətin inkişafına da xüsusi diqqət yetirib. Onun qayğısı bir çox sahələrdə müsbət nəticəsini vermişdir, yaxın tariximizdə bunu təsdiqləyən zəngin faktlar çoxdur. Şübhəsiz ki, Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi müasir proseslərdən təcrid oluna bilməz. Lakin biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmadan özünü müdafiə vasitəsinə çevirməliyik. Mədəniyyət sahəsində özünü tənzimləmə metodları tətbiq edilməli, prioritetlər aydınlaşdırılmalı və maliyyələşdirilməlidir. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində milli mədəniyyətin özünəməxsusluğunu, milli-mədəni dəyərləri qorumaq, mühafizə etmək mümkündür ki, bu məsələdə də adət və ənənələr , Azərbaycan bayramları müstəsna əhəmiyyətə malikdir.

**Nəticə.**Milli-mənəvi dəyərlərimizi qorumaq, onlara hörmət və ehtiramla yanaşmaq, təbliğ etmək və gənc nəsli bu ruhda tərbiyə etmək hər bir Azərbaycan

vətəndaşının borcu və vəzifəsidir. Bunu əsas götürərək ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, biz öz milli-mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Ümumiyyətlə hər bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi.

## Ədəbiyyat

1. A.Axundov. Dilimizə dövlət qayğısı. "Dirçəliş" jurnalı, №41, B.,2001.
2. F. Heydərov. Heydər Əliyev irsi milli sərvətimizdir. Bakı, Ozan, 1999
3. F. Rüstəmov Heydər Əliyev və Azərbaycanda elmi-pedaqoji kadr hazırlığı. Bakı, Səda, 2003
4. R. Mehdiyev. Heydər Əliyev və azərbaycançılıq. Bakı, 2002
5. V. Əliyev. Heydər Əliyevin dil siyasəti. Bakı, Nurlan 2003
6. F. Səfərli. Heydər Əliyev irsi-Əbədiyaşar təlim. Naxçıvan 2014.

**NAZILA RAHIMOVA**

## THE GUARDIAN OF OUR NATIONAL VALUES - HEYDAR ALIYEV SUMMARY

Heydar Aliyev paid special attention to the protection of our national and moral values. It is known that the Soviet regime alienated our people from their religion and national-spiritual values. It is an undeniable fact that after the Islamization of our nation, the culture of Azerbaijan with all its material and spiritual achievements entered the treasury of the general Islamic culture, and our culture acquired an Islamic content. It is impossible to imagine our customs and traditions, holidays and ceremonies, even our everyday life outside of Islam. Our whole life, even our architectural monuments, while maintaining their nationality, had also had Islamic shades. Therefore, during the years of Soviet rule, these monuments related to Islam were destroyed and destroyed. After Heydar Aliyev came to power in Azerbaijan for the second time, these situations were resolutely prevented. He

opposed the destruction of our material and cultural monuments, and did great work for their preservation.

**Keywords:** great leader, our national-spiritual values, monument, custom and tradition

**НАЗИЛЯ РАГИМОВА**

**ХРАНИТЕЛЬ НАШИХ НАЦИОНАЛЬНЫХ ЦЕННОСТЕЙ – ГЕЙДАР АЛИЕВ**

**РЕЗЮМЕ**

Гейдар Алиев уделял особое внимание защите наших национальных и нравственных ценностей. Известно, что советская власть отдалила наш народ от его религии и национально-духовных ценностей. Неоспоримый факт, что после исламизации нашего народа культура Азербайджана со всеми ее материальными и духовными достижениями вошла в сокровищницу общеисламской культуры, и наша культура приобрела исламское содержание. Наши обычаи и традиции, праздники и обряды, даже нашу повседневную жизнь невозможно представить вне ислама. Вся наша жизнь, даже наши архитектурные памятники, сохраняя свою национальность, тоже имели исламские оттенки. Поэтому в годы советской власти эти памятники, связанные с исламом, разрушались и разрушались. После того, как Гейдар Алиев во второй раз пришел к власти в Азербайджане, подобные ситуации были решительно предотвращены. Он выступал против уничтожения наших материальных и культурных памятников и проделал огромную работу по их сохранению.

**Ключевые слова:** великий вождь, наши национально-духовные ценности, памятник, обычай итрадиция

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: dosent Faida İsayeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**